**NURANƏ İBRAHİMOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universitetin**
**nurana.b-va@mail.ru**

# BEŞİNCİ SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNDƏ FONETİKA

**Açar sözlər:** əlifba, danışıq üzvləri, sait, samit, lüğət.
**Key words:** alphabet, members of the negotiations, vowels, consonants, dictionary.
**Ключевые слова:** алфавит, члены разговора, гласный, согласный, словарь.

Nəzəri dilçilik əsrlər boyu uzun inkişaf yolu keçmişdir. Bu inkişaf əsasında onun bir sıra şöbələri yaranıb müəyyənləşmişdir.

Dilin səs sistemindən bəhs edən dilçilik şöbəsi *Fonetika* adlanır. Fonetika dilçiliyin ən çox işlənmiş sahələrindəndir. Fonetika termini yunan mənşəli söz olub *fone* (phone) səs deməkdir. Bu sözdən yaranmış fonetika isə danışıq səsinə məxsus olan təlim anlayışını bildirir.

Fonetika dilçilikdə böyük əhəmiyyətə malikdir. Belə ki, hər hansı bir dilin qrammatik, yaxud sintaktik quruluşunu yaxşı mənimsəmiş bir şəxs əgər səsləri düzgün tələffüz etmirsə, onun orfoepik normalarını pozursa, nitqi anlaşılmaz olar.

Fonetika yalnız insan səslərini, ictimai ünsiyyət elementi olan səsləri öyrənir. Ahəng qanunu, heca və vurğu da fonetikanın mövzularına daxildir.

Nitq səslərinin formalaşmasında nitq orqanizminin hissələrini təşkil edən üzvlərin hər birinin müəyyən vəzifəsi vardır. Buna görə də səslərin formalaşmasında iştirakına görə bu üzvləri üç qrupa ayırmaq olar:

1) Fəal üzvlər;
2) Köməkçi üzvlər;
3) Avazlayan üzvlər.

Səs telləri, arxa damaq, dil, dilçək və dodaqlar fəal; dişlər, yuvaqlar, ön damaq, nəfəs borusu və ağ ciyərlər köməkçi; qırtlaq, udlaq boşluğu, ağız boşluğu, burun boşluğu və çənələr avazlayan üzvlərdən sayılır.

5-ci sinif Azərbaycan dili dərsliyinin I bölməsində fonetika bəhsinə həsr olunmuş dil qaydaları qeyd olunmuşdur. Ənənəvi dərsliklərdən fərqli olaraq, yeni dərsliklərdə dil qaydaları geniş şəkildə deyil, daha çox tapşırıq və mətn daxilində öyrədilir. Bu da şagirdi müstəqil şəkildə araşdırmağa, idrak fəallığına və tədqiqatçılığa sövq edir.

5-ci sinif şagirdləri sözdə vurğulu hecanın yerini müəyyən etməkdə çətinlik çəkirlər. Ona görə də şagirdlərdə bu bacarıq empirik yolla formalaşdırılır. Bunun üçün ilkin mərhələdə vurğusu dəyişməklə mənası

dəyişən sözlər üzərində işləmək tövsiyə olunur. Şagirdlərdə vurğu problemini aradan qaldırmağın ən yaxşı yolu hecalar üzərində işləməkdir. Sözün hecalarını növbə ilə qüvvətli deməklə vurğunun hansı heca üzərində olduğunu asanlıqla müəyyən etmək olar. Bölmənin sonunda heca vurğusu haqqında məlumat verilir.

7 nömrəli çalışmada "xülasə" sözündəki vurğu fərqi şagirdlərin diqqətinə çatdırılır.

"Hansı cümlədə "xülasə" sözü mətndəki mənada işlənib?

A) Xülasə, söz verdiyimiz vaxtda iclasa gedib çatdıq.

B) Məruzənin xülasəsi yazılı şəkildə hamıya paylandı" (1, 11).

Şagirdlər ibtidai siniflərdə qalın və incə, dodaqlanan və dodaqlanmayan saitlər haqqında məlumat aldıqları üçün müəllim 5-ci sinifdə açıq və qapalı saitlərə daha çox diqqət yetirir. Açıq saitlərin tələffüzündə ağız boşluğunun geniş açıldığı, qapalı saitlərin tələffüzündə isə ağız boşluğunun bir qədər qapanmış vəziyyətdə olduğu şagirdlərin nəzərinə çatdırılır.

"8. "Mükafat" sözündəki sait və samit səsləri müəyyənləşdirin."

"9. [u] qalın, [ü] isə incə saitdir. Bəs onların tələffüzündə hansı oxşarlıq var?" (1, 12)

Dərslikdə verilmiş 8-9-cu tapşırıqları yerinə yetirməklə şagirdlər əvvəlki siniflərdə bu mövzu üzrə keçdiklərini təkrar edirlər.

10-cu tapşırıq motivasiya rolunu oynayır və şagirdlərin diqqətini açıq və qapalı saitlərin tələffüzündəki fərqə yönəldir. "A" və "ı" saitlərinin ikisi də qalın, dodaqlanmayan saitdir. Lakin alt çənənin açılma dərəcəsinə görə bu saitlər fərqlənir: "a" açıq, "ı" qapalı saitdir.

" "Ayı" sözündəki saitlərin oxşar xüsusiyyətlərini sadalayın. Bəs bu saitlərin tələffüzündə hansı fərq var?" (1, 12)

13-cü tapşırıqda Aşıq Ələsgərin dodaqdəyməz təcnisi verilmişdir. Bu tapşırığı yerinə yetirərkən şagirdlər şeir parçasında dodaqlanan saitlərin işlənmədiyini müəyyənləşdirməlidirlər. Müəllim ədəbiyyat fənni ilə inteqrasiya yaradaraq dodaqdəyməz təcnis janrı haqqında məlumat verə bilər.

"Aşağıdakı şeir parçasında hansı növ sait səslər iştirak etmir? Bu səslərə xas olan xüsusiyyəti müəyyənləşdirin.

Qışda dağlar ağ geyinər, yaz-qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat." (1, 12)

Nitq səsləri dilin ən adi elementləridir, sözün bölünməyən ən kiçik vahididir. Lakin bununla yanaşı, çox mürəkkəb və çoxcəhətli hadisədir. Canlı nitqdə səslər əlifba hərflərindən çoxdur, hansı ki, onlar orfoqrafiyada əks olunmur.

4-cü tapşırıq samit səslərə aid nəzəri məlumatın mənimsədilməsi üçün motivasiya rolunu oynayır. Samitlərin növləri ilə bağlı nəzəri məlumat mənimsədilir. “K” hərfinin iki adının olması, məqamına görə üç səs ifadə etməsi ilə bağlı nümunələr əsasında iş aparılır.

“K: “ke” [k] – kitab, kələm

K: “ka” [k'] – tank, kosmos

K: “ke” [x'] – ürək, mələk” (1, 14)

Şagirdlər aşağı siniflərdən ahəng qanunu ilə tanışdırlar. Dərslikdə təkrar, eyni zamanda təkmilləşdirmə xarakteri daşıyaraq ahəng qanununa aid dil qaydası və tapşırıqlar qeyd olunmuşdur. Lakin mövzuya keçməzdən əvvəl müəllim “ahəng” və “ahəngdarlıq” anlayışlarını müzakirə etməlidir.

Dərsliyin 17-ci səhifəsindəki 5-6-cı tapşırıqlar “Ahəng qanunu” mövzusu üçün motivasiya rolu oynayır. Nəzəri material mənimsədildikdən sonra 7-9-cu tapşırıqlar yerinə yetirilir.

8-ci tapşırığa nəzər yetirək.

“Hansı cümlələrdə bütün sözlər ahəng qanununa tabedir?

1) Çayın kənarındakı meşədən qəribə səslər eşidilirdi.

2) Xalqımız torpaq uğrunda vuruşanları unutmur.

3) Baharın gəlişi ilə təbiət oyandı.

4) Nailə bağçadakı çiçəklərə heyranlıqla tamaşa edirdi.” (1, 17)

5-ci sinif Azərbaycan dili dərsliyində fonetika məsələlərinə geniş yer ayrılmağın praktik əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar:

1 ) Dil tarixinin öyrənilməsində, sözlərin etimologiyasının dəqiqləşdirilməsində fonetikanın rolu əvəzsizdir;

2) Dilin əlifbasını tərtib etmək nitq səslərinə əsaslanır;

3) Dilin orfoqrafik qaydalarının, tələffüz normalarının və düzgün tələffüz əsaslarının müəyyənləşdirilməsində nitq səsləri əsas rol oynayır;

4) Nitq səslərini və onların səciyyəsini bilmədən fonemlərin dildəki kəmiyyətini bilmək olmaz, fonetika dilin səs torkibini müəyyənləşdirir;

5) Nitq səsləri oxu və yazını tədrisetmə metodikasının əsasına xidmət edir;

6) Kamil, savadlı olmaq və yüksək yazı mədəniyyətinə yiyələnmək üçün səslər arasındakı fərqi və dilin yazı formasını dürüst bilmək lazımdır;

7) Nitq səsləri yazısı olmayan xalqların dillərinin əlifbasını və yazısını yaratmaq üçün zəruridir;

8) Qədim yazılı dillərin orfoqrafiya qaydalarının təkmilləşdirilməsi nitq səsləri əsasında mümkündür;

9) Dillərin qohumluğunu müəyyənləşdirən amillərdən biri də nitq səsləridir;

10) Canlı xarici dillərin tədrisində nitq səslərinin əhəmiyyəti böyükdür;

11) Fonetika səslərin dəyişmə, əvəzlənmə, səsdüşümü, səsartımı, uyğunlaşması və fərqlənməsi kimi hadisələri bilməyi və ahəng qanununu dəqiqləşdirməyi zəruriləşdirir.

### Ədəbiyyat

1) Buludxan Xəlilov. Müasir Azərbaycan dili. "Bakı Çap Evi" nəşriyyatı, Bakı, 2013.

2) Həsrət Həsənov. Müasir Azərbaycan dilinin fonetikası. "Təfəkkür" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2004.

3) Azərbaycan dili (metodik vəsait). Bakı, 2016.

4) Azərbaycan dili (5-ci sinif dərsliyi). Bakı, 2016.

N.Ibragimova

## Phonetics in the fifth grade textbook of the Azerbaijani language

## Summary

In the article touched phonetics and some topics were examined in 5th grade textbook of the Azerbaijani language.

Phonetics of speech sounds about as fully covers not only to determine its true nature of science, because phonetics, syllables and tone is studying various types and melodic type of phonetic change, and not only because the speech sounds and accent.Therefore it is better to explain his vote and voice by studying science as a means of phonetics.

Speech sounds of language are the most common element is the smallest unit of the word, not divided. But at the same time, very complicated and many-sided phenomenon. The letters of the alphabet are many voices on a live speech, which is reflected in their spelling.

To study any language in the first place should start with his phonetics. Teacher of the Azerbaijani language is not only our own language, at the same time, foreign language, to know and to teach composition of the vote, compared with.

The speech is lined with some regularity in their voices. Close contact with each other, the impact is undergone changes to simplify pronunciation, the sound. Thus, the phonetic events are created.

Phonetics helps to study history of language, open the etymology of the languages and it helps to determine the relationship of their. Phonetics has great importance in the clear pronunciation of sounds, in the logopedia and in the translation.

**Н. Ибрахимова**

**Фонетика в учебнике азербайджанского языка для пятого класса**
**Резюме**

В статье рассматриваются вопросы фонетики в учебнике азербайджанского языка для 5-го класса, некоторые из которых изучены.

Идентификация фонетики как науки о звуках речи не охватывает ее истинную сущность, потому что фонетика изучает не только звуки, но и фонетическое замещение, различные типы акцентов, мелодические типы, слоги и интонацию. Поэтому более уместно описать фонетику как науку об изучении языка и свойствах звука.Звуки речи – это самые обычные элементы языка, самые маленькие единицы речи. Однако это очень сложное и многогранное событие. Живые звуки - это больше, чем буквенные символы, которые не отражаются в написании.

Чтобы выучить любой язык, нужно начать с его фонетики. Преподаватель азербайджанского языка должен знать о звуковом составе не только на нашем родном языке, но в том числе и на иностранных языках и обучать сравнивая.

В речевых потоках разговорные звуки сортируются по специфике. Голоса тесно переплетены под влиянием и настроены, чтобы упростить произношение. Однако происходят фонетические соответствия.

Фонетика помогает выучить историю языка, выявить этимологию слов, выявить противоречия в языках.. Фонетика имеет большое значение в ясном и понятном произношении громких голосов, в логопедии.

**Rəyçi: Təranə Nağıyeva**
**Filologiya üzrə fəlsəfə doktoru**